MÜSABİQƏ

# Azərbaycan xalçası Azərbaycan xalqı qədər qədimdir

## XALÇAÇILIQ AZƏRBAYCAN KİMİ BÖYÜK MƏDƏNİYYƏTƏ VƏ QƏDİM TARİXİ ƏNƏNƏLƏRƏ MALİK XALQLARA MƏXSUS SƏNƏTDİR

**ORTA** məktəbdə oxuyarkən bir hadisə bu günə kimi yaddaşımın bir küncündə ilişib qalıb. Hər il kəndimizə köhnə xalça, gümüş xəncər, kəmər və s. alan səyyar alıcılar gəlirdi. Bir dəfə qonşumuz İsa Həbibovun evindəki taxtın üstündəki nimdaş xalça onlardan birinin marağına səbəb oldu. Həyəcanlı olduğu diqqət çəkirdi, sanki ilk dəfə idi xalça görürdü. Alıcı bəzi yerləri sökülmüş, rəngi solmuş və o qədər də böyük olmayan nimdaş xalçanı təzə, müxtəlif ölçülü fabrik istehsalı olan yerli xalçalarla dəyişməyi təklif edirdi. Amma hər dəfə də rədd cavabı alırdı. Amma buna baxmayaraq alıcı həvəsdən düşmür, daha cəlbedici təkliflər verirdi. Sonda tərəflər iki İran xalçası ilə nimdaş xalçanı dəyişməyə razılaşdılar. Bəziləri deyə bilər ki, o vaxt İran xalçası nə gəzirdi, amma vardı. Bu gün də həmin xalçalar gözlərim qarşısında, deyilən sözlər yaddaşımdadı. Hesab edirdim ki, alıcı dəli olub. Əslində, dəyişdirilən maddi dəyəri olan Qazax xalçaçılıq məktəbinə aid Borçalı xalçası idi, nənələrmiş toxumuşdu, özü də Arıxlıda toxunmuşdu. Tariximizin, mədəniyyətimizin bir parçası idi. Uşaq ağlımla bunu dərk edə bilmirdim. Amma alıcı iki İran xalçasını nə ilə dəyişdirdiyini çox yaxşı bilirdi. Xalçamızın toxunuş keyfiyyəti, qədim çeşniləri, unikal və mənalı naxışları ona seçim üstünlüyü qazandırmışdı. Aydındır ki, alıcı aldığı nimdaş xalçanı divardan asmaq üçün almırdı.

### Xalçanın toxunduğu yun saplar kəndin təbiətinin rəngləri ilə boyanırdı

Arıxlıda ən çox farmaş (məfrəş), xurcun, heybə, yəhərüstü, həsir, palaz, kilim toxuyardılar. Bu, kənd sakinlərinin yayda dağa köçü ilə bağlı idi. Hana qurulub xalça toxunulmasını isə qonşumuz Çayçı Qulunun evində görmüşdüm. Evinin birinci mərtəbəsində hana qurular, Gülxanım arvad öz qızları üçün cehizlik xalçalar toxuyardı. Ona qohumları olan qadınlar köməklik göstərirdilər. Xalçanın toxunduğu yun saplar isə kəndin təbiətinin rəngləri ilə boyanırdı. Sonra yun saplar bu qadınların bacarıqlı əlləri ilə ümidlərinin və sevinclərin, həyat tərzinin və adətlərin cəmləşdiyi naxışlara, naxışlar isə xalçalara çevrilirdi. Bu xalçalar yalnız bir sənət əsəri deyildi, o həm də mənəvi və maddi mədəniyyət abidəsi idi. Xalçaların üstündə onun nəvələri doğuldu, dünyasını dəyişəndə qəbir evinə də toxuduğu xalça arasında aparıldı.

### Böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənət

Azərbaycan xalçası Azərbaycan incəsənətinin zəngin xəzinəsi, böyük bir sənət əsəri, bir xalqın yazılı tarixi, milli dəyəri, şifahi ədəbiyyatı və klassik dünyagörüşünün əsas mənbəyidir. Azərbaycan kimi böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir. Bu sənət dünya mədəniyyətinə öz təsirini göstərib, insanların estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynayıb.

Naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə fərqlənən Bakı, Quba, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz ( 7 xalçaçılıq məktəbi) xalçaçılıq məktəblərinə aid xalçaların təsviri orta əsr Şərq miniatürlərində, İntibah dövrünün italyan, holland, flamand rəssamlarının rəngkarlıq əsərlərində əks olunub. Bu, rəssamların sənət əsərlərində özünəməxsus üslub və kolorit yaratmasına səbəb olub. Bir sözlə, intibah dövrünün rəssamları Azərbaycan xalçalarının incə ornamentləri, zərif və nəfis naxışları, dərin, təkrarolunmaz məzmunu, yüksək forma rəngarəngliyinə heyran qalıb. Bu gün Toskaniyanın rəsm əsərlərinə, Venesiya parçalarına bu xalçaların təsiri danılmazdır. XV əsr Niderland rəssamları Hans Memlinqin "Məryəm öz körpəsi ilə" tablosunda "Şirvan" xalçası, Van Eykin "Müqəddəs Məryəm" əsərində "Zeyvə xalçası", alman rəssamı Hans Holbeynin (XV əsr) "Səfirlər" əsərində "Qazax" xalçasının təsvirləri verilib. Bunlar xalçalarımızın nə qədər dəyərli olduğunu bir daha sübut edir. Belə olmasa idi bu gün xalçalarımız Nyu-Yorkun "Metropoliten", Londonun "Viktoriya və Albert", Parisin "Luvr", İstanbulun "Topqapı", Romanın, Berlinin, Tehranın, Qahirənin, Moskvanın və Vyananın məşhur muzeylərində nümayiş etdirilməzdi.



### Butanın ermənilərə heç bir aidiyyəti yoxdur

Xalçalarımızın dünya mədəniyyətində oynadığı rol isə bəzi mənşəyi məlum olmayan xalqları həmişə narahat edib. Ermənilər tərəfindən milli-mənəvi dəyərlərimizin oğurlanması bir adətə çevrilib. Məsələn, açıq online ensiklopediyası olan vikipediyada erməni xalça tarixinin qədim köklərə malik olduğu göstərilib. Burada erməni xalçalarının füsunkar ornament və naxışlarından danışılır. Şəkillərdə isə Qarabağ, Qazax, Naxçıvan, hətta Təbriz xalçaları erməni xalçaları kimi göstərilir. Fars xalçaları adı ilə təqdim olunan xalçalarımız da az deyil. Bu cür təxribatlara dünyanın müxtəlif özəl muzeylərində də rast gəlinir. Tez-tez xarici səfərdə olan etnoqraf Eldar İdrisov bunun şahidi olub: «Varşavada xalça muzeyinə getmişdim. Erməni əsilli isveçrəlinin (onun həyat yoldaşı polyak olub) kolleksiyası əsasında yaradılmış muzeydə Azərbaycana məxsus xalçalar vardı. Forma zənginliyinə, rənglərin əlvanlığına (al-qırmızı, palıdı, qızılı, sarı, çəhrayı rənglər) və yüksək fantaziyalarına görə fərqlənən Qarabağ xalçaları erməni xalçaları kimi təqdim olunurdu. Muzey əməkdaşına Qullabı ilmə üsulu ilə toxunan iri ölçülü həndəsi göllər, nəbati motivli naxışlarla zəngin olan bu xalçaların erməni deyil, Azərbaycanın Qarabağ xalçaçılıq məktəbinə aid olduğunu bildirəndə sözlərimi təəccüblə qarşıladı. Bildirdim ki, ermənilərin xalçaçılıq sənəti olmayıb. Onların əsas hissəsi Qarabağa, Borçalıya 1813-cü ildə Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrindən sonra gəlib.

Ətrafımıza 2 – 3 turist toplaşmışdı və diqqətlə məni dinləyirdilər. Bundan istifadə edib Qarabağ xalçaları barədə daha geniş məlumat verdim. Qeyd etdim ki, Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı səbəbindən azərbaycanlıların öz evlərini tərk etməsindən sonra onların özləri ilə aparmağa imkan tapmadığı digər əmlakları kimi, Qarabağ xalçaçılıq məktəbinə aid olan çoxsaylı nümunələr ermənilər tərəfindən evlərdən, xalça sexlərindən talanıb. Bundan başqa, ermənilər vaxtilə Qarabağı kəndbə kənd gəzərək zəngin forması, simvolikası və rəng çalarları ilə seçilən xalçalarımızı alaraq Ermənistana, oradan isə erməni xalçaları adı altında bir çox xarici ölkələrə daşıyıb. Yaxşı nəyimiz vardısa, ucuz qiymətə alınıb baha satılıb, muzeylərdə sərgilənb- erməni xalçası adı ilə. Əslində «Çələbi», "Qasımuşağı", "Bəhmənli", "Ləmpə", "Şabalıd-buta", "Malıbəyli", «Buynuz», "Balıq" adlı xalçalar Qarabağ xalçalarıdır və azərbaycanlılara məxsusdur. Muzeydə Bakı xalçaları da vardı. İlmələri Qarabağ xalçalarına nisbətən daha sıx vurulmuş bu xalçalarda dəvə, buta, dördbucaqlı göllər üstünlük təşkil edirdi. Qeyd edim ki, buta Azərbaycan ornament sənətinin çox yayılmış bəzək elementlərindən biridir. Butanın ermənilərə heç bir aidiyyəti yoxdur. Eləcə də dəvənin».

Eldar İdrisovun sözlərinə görə, xalçalarla bağlı kataloqlarda kolleksiya sahiblərinin əksəriyyəti ermənilərdi. «Onlar dünyanın müxtəlif ölkələrinə səpələniblər və kolleksiyalarında əsasən Azərbaycan xalçaları toplanıb. Kim zəmanət verə bilər ki, bir müddət sonra onlar erməni xalçaları kimi sərgilərdə göstərilməyəcək? Dəfələrlə bunun şahidi olmuşuq. Bu neqativ halların qarşısı vaxtında alınmalıdır».

### Xalçalarımızın qorunması və təbliği

Azərbaycan xalçası Azərbaycan xalqı qədər qədimdir. O həm tariximiz, həm də mənəviyyatımızla bağlı olduğundan kimlərinsə, mənəvi və maddi mədəniyyətimizə sahib çıxmalarına imkan verilməməlidir. Bu istiqamətdə isə ardıcıl işlər həyata keçirilir. Heydər Əliyev Fondunun sədri Mehriban xanım Əliyevanın təşəbbüsü və layihələri əsasında xalçamız YUNESKO-nun "Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilib. 10 mindən yuxarı tətbiqi sənəti nümunələri saxlanılan Dövlət Xalça Muzeyi isə xalçalarımızın həm qorunması, həm də təbliğində avanqard rolunu oynayır. Azərbaycan Xalça Muzeyinin direktoru Şirin Məlikova bildirir ki, Azərbaycan xalçaları dünya muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Lakin onların müəyyən hissəsi insanlara fars, bəzən isə erməni xalçaları kimi təqdim olunur. Azərbaycan Xalça Muzeyinin məqsədlərindən biri xalçalarımızın Azərbaycan mənşəli olduğunu elmi cəhətdən sübut edib, düzgün atribusiyasına nail olmaqdır. "Bu istiqamətdə uğurlu işlərimiz olub. Belə ki, Boqdan və Varvara Xanenko adına incəsənət muzeyinin (Ukrayna), Almaniyada şəxsi qalereyanın, Amerika alimi Raul Çebulun və s. müraciətləri əsasında onlarda mühafizə olunan Azərbaycan xalçalarının yanlış gedən atribusiyası dəqiqləşdirilib. Məsələn, Boqdan və Varvara Xanenko adına incəsənət muzeyində yanlış olaraq erməni xalçası adı altında qeydiyyata alınmış xalçanın Qazax məktəbinin "Dağkəsəmən" xalçası olduğu, səhv olaraq "Bico" adlandırılmış xalçanın Quba məktəbinin "Sumax" xalçası olduğu bildirilib. Onların dəqiq tarixi və işlənmə texnikası müəyyənləşdirilib, məlumatlar sözü gedən muzey və şəxslərə təqdim edilib. Nəticədə həmin xalçaların Azərbaycan xalçaçılıq məktəbinə aid olduğu təsdiqini tapıb. Muzey həmçinin respublikada və xarici ölkələrdə xalça və xalq tətbiqi sənətinə aid sərgilər, beynəlxalq konfrans, simpoziumlarda fəal iştirak etməklə də xalçalarımızı təbliğ edir"- o deyir.

"Azərxalça" ASC-nin xidmətini də unutmaq olmaz. "Azərxalça" ASC İdarə Heyətinin sədri Vidadi Muradov bildirir ki, "Azerbaijan carpet" ("Azərbaycan xalçası") ölkə brendi yaradılıb. "Bu brend mədəni ənənələrə əsaslanır və xarici bazarlarda Azərbaycan xalçalarının başqa ölkə brendləri adı altında satılmasının qarşısının alınması baxımından olduqca əhəmiyyətlidir".

Vidadi Muradov bildirir ki, Azərbaycan xalçalarının təbliğatı məqsədilə dünyanın bu sahə üzrə ixtisaslaşmış nüfuzlu "Halı" və "Carpet XL" jurnalları ilə əməkdaşlıq edilir. "Bu jurnalların hər nömrəsində Azərbaycan xalçaları reklam olunur. Daha çox biznes sektorunda yayılan jurnallarda Azərbaycan xalçalarının təbliğ olunması mühüm əhəmiyyət daşıyır. Çünki saylarında klassik xovlu və xovsuz xalçalara, modern xalçalara geniş yer verən bu jurnalların əsas oxucuları xalçaçılıq üzrə aparıcı şirkətlərin rəhbərləri, pərakəndə satış sektorunun nümayəndələri, ABŞ və Avropa ölkələrində fəaliyyət göstərən xalça satışı mərkəzlərinin, mağazalarının təmsilçiləridir". Onun sözlərinə görə, təbliğat məqsədi ilə xalçalarımız ixtisaslaşmış Almaniyanın Hannover şəhərində keçirilmiş ənənəvi DOMOTEX beynəlxalq xalça satışı sərgisində, Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən Rug Shov-da, müxtəlif ölkələrdə təşkil olunan sərgilərdə nümayiş olunur. "Bu tədbirlər Azərbaycan xalçalarına dünya bazarlarında tələbatın böyük olduğunu göstərdi. Hazırda burda istehsal edilən xalçalar ABŞ, Almaniya, Fransa, Türkiyə, Rusiya, Avstraliya, Yaponiya, İsveçrə, İtaliya, Norveç, Cənubi Afrika və dünyanın digər ölkələrində şəxsi kolleksiyaların və evlərin bəzəyinə çevrilib". Vidadi Muradov bildirir ki, xalçalarımız barədə irimiqyaslı tədqiqat əsərləri, kitablar onlar barədə məlumat mənbəyidir və erməni saxtakarlıqlarının qarşısını almaqda böyük əhəmiyyətə malikdir. Bu sahədə xeyli iş görə bilmişik.

Doğrudan da Qloballaşan dünyada informasiya bolluğu xalqın tanınması deməkdir. Bu baxımdan Azərbaycan istər neft, istər muğam, istərsə də xalçası ilə nə qədər çox tanınsa, onun mövqeyi bir o qədər möhkəmlənmiş olar. Görülən bu işlər isə beynəlxalq miqyasda xalçaçılıq sənətimizə, xalçalarımıza yönələn iddiaların qarşısının alınmasında bizə əlavə imkanlar açır,dünyada Azərbaycanın təbliğat vasitəsinə çevrilir. Eyni zamanda ölkəmizə valyuta gətirir.

Unutmayaq ki, Azərbaycan xalçası təkcə milli həyat tərzinin əsas elementlərindən, dekorativ-tətbiqi sənətin növmüxtəlifliyi deyil, onunla xalqın mövcudluğunun mənəvi və əxlaqi normaları bağlı olub.

***Pünhan Əfəndiyev***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir*